2026. Volume 10, Number 1 *Pages 108-113*

UOT: 81'373
DOI: https://doi.org/10.30546/09081.2026.1.1038

DİLÇİLİKDƏ NOMİNASİYA PROBLEMİ: KOQNİTİV, SOSİAL, STRUKTUR ASPEKTLƏR

Ülkər ÇƏNDİRLİ

Sumqayıt Dövlət Universitetinin doktorantı

Bakı, Azərbaycan

Məqalə haqqında məlumat

Məqalənin tarixçəsi:
Daxil olub: 2025-06-01
Təkrar işlənmiş formada daxil olub: 2025-06-25
Qəbul edilib:2025-07-30
Onlayn əlçatandır: 2026-06-19

Açar sözlər:
adlandırma, nominasiya nəzəriyyəsi, motivasiya, onomastika, nominasiya amilləri

Xülasə

Məqalədə müasir dilçiliyin aktual istiqamətlərindən biri olan nominasiya nəzəriyyəsi, onun konseptual-mental əsasları və onomastik sistemdəki təzahür formaları tədqiq olunur. Tədqiqatın məqsədi adlandırma prosesinə təsir göstərən dildaxili və dilxarici amillərin qarşılıqlı əlaqəsini və motivasiya prinsiplərini sistemli şəkildə işıqlandırmaqdır. Analiz zamanı nominasiyanın sadəcə formal dil vahidlərinin seçimi mühiti deyil, idrak, sosial-mədəni təcrübə və dil şüuru ilə şərtlənən mürəkkəb nitq-təfəkkür aktı olduğu müəyyənləşdirilmişdir. Məqalədə nominasiya amilləri obyektiv, subyektiv, nitq və sistem xüsusiyyətlərinə görə cədvəl əsasında qruplaşdırılmışdır. Tədqiqatın nəticəsi olaraq əsaslandırılır ki, obyektdən adverməyə keçid birbaşa deyil, mental səviyyədə formalaşan koqnitiv halqa vasitəsilə icra olunur. Nominasiya prinsiplərinin öyrənilməsi həm ümumi leksikologiyanın, həm də xüsusi onomastik qatların nominativ texnikasının dərindən dərk edilməsi baxımından böyük elmi-nəzəri əhəmiyyət daşıyır.

2521-6333/© 2026 The Author(s). Published by Baku Engineering University.
This is an open access article under the CC BY 4.0 license (http://creativecommons.org/licenses/by/4.0/).

THE PROBLEM OF NOMINATION IN LINGUISTICS: COGNITIVE, SOCIAL , STRUCTURAL ASPECTS

Ulker Chandirli, Doctoral Student, Sumgait State University

Summary

The article deals with the theory of nomination, which is one of the relevant directions of modern linguistics, its conceptual and mental foundations and forms of manifestation in the onomastic system. The purpose of the research is a systematic study of the relationship between intra- and extralinguistic factors influencing the nomination process, and the principles of motivation. The analysis reveals that nomination is not simply a formal framework for selecting linguistic units, but also a complex mental-speech act caused by cognitive, socio-cultural experience, and linguistic consciousness. In the article, the factors of nomination are grouped in a table based on objective, subjective, speech, and systemic characteristics. The analysis allows us to conclude that the transition from object to nomination is not direct, but rather is accomplished through a cognitive link formed at the mental level. The study of the principles of nomination is of great scientific and theoretical significance both in terms of general lexicology and a deep understanding of nominative technique in onomastics.

Keywords: nomination, nomination theory, motivation, onomastics, nomination factors

Giriş

Müasir dilçilikdə nominasiya nəzəriyyəsi kifayət qədər perspektivli və dinamik inkişaf edən bir istiqamətdir. Genişmiqyaslı araşdırmalara baxmayaraq, adın mahiyyəti və təbiəti ilə bağlı

qaranlıq məqamlar bu sahəni hələ də dilçilərin, filosofların və psixoloqların diqqət mərkəzində saxlayır. Çünki nominasiya problemi nəzəri dilçiliyin fundamental sütunlarından birini təşkil edir və insanın ətraf aləmi mənimsəmə prosesini daim müşayiət edir.

Bu nəzəriyyənin əsas predmetinə aşağıdakılar daxildir:

1.Dil vahidlərinin formalaşmasının ümumi qanunauyğunluqlarının tədqiqi;

2.Təfəkkür, dil sistemi və obyektiv reallıq arasındakı üçlü əlaqənin öyrənilməsi;

3.Motivasiya əlamətlərinin seçilməsində insan (subyektiv) amilinin rolunun müəyyənləşdirilməsi;

4.Nominativ aktların, üsul və vasitələrin sistemli şəkildə təhlil edilməsi.

"Hər bir nominasiyanın optimal üsulunun seçilməsi obyektiv və subyektiv məqamlar, xarici və daxili dil amilləri tərəfindən müəyyənləşdirilən mürəkkəb prosesdir. Bu prosesdə insan şüurunda yaranan yeni anlayışlar sistemi və onun mühüm xüsusiyyətləri insanın daşıyıcısı olduğu konkret dil tərəfindən müəyyən edilir" (Sadıqova, 2022: 50).

Adlandırma aktları praqmatik faktorlarla birbaşa təmasda reallaşır. Bu faktorlar adverənin obyektə olan emosional, qiymətləndirici münasibətində, eləcə də nitqin sosial mühiti və dilin funksional-üslubi diferensiasiyasında özünü büruzə verir.

Nominasiya prosesi, dinamikası və amilləri

Leksik sistemə daxil olan vahidlərin təşəkkülü birbaşa adlandırma (nominasiya) prosesi ilə xarakterizə olunur. İnsanın obyektiv varlığı dərk etməsi ilə paralellik təşkil edən bu fəaliyyət aktı bəşəriyyətin bütün inkişaf mərhələlərində özünü göstərir. Bu səbəbdən də dilçilər nominasiyanı çoxaspektli bir fenomen kimi dəyərləndirirlər: o, bir tərəfdən, fərdin ontogenetik inkişafında tədricən yiyələndiyi xüsusi bir kateqoriya, digər tərəfdən isə ümumbəşəri və universal bir xüsusiyyətdir.

B. Serebrennikov qeyd edir ki, *hər bir nominasiya, hər şeydən əvvəl, linqvistik texnikadır, lakin bu texnika mentalist əsaslara malikdir və müxtəlif şəraitlərdə həyata keçirilir* (Серебренников, 1977: 159). Müəllifin bu yanaşması adlandırma prosesini yalnız daxili mexanizmlərlə məhdudlaşdırmır, onu idrak və kontekstual mühitlə vəhdətdə götürür. Belə ki, bu prosesdə dil qaydaları və modellərinə əsaslanan sistemlilik mövcuddur. Lakin həmin texniki tərəf mental əsaslara istinad edir; yəni adverm ədə fərdin dünyanı qavrama forması, bilik fondu və konseptual assosiasiyaları həlledici təsirə malikdir. Digər tərəfdən, "müxtəlif şəraitlərdə reallaşma" amili nominasiyanın sosial, mədəni, tarixi və praqmatik mühitlə şərtləndiyini sübut edir. Beləliklə, adlandırma nə sırf mexaniki, nə də tamamilə subyektiv bir aktdır; o, idrak, dil sistemi və kommunikasiyanın kəsişməsində formalaşır. Bu baxımdan, sözügedən nəzəriyyə nominasiyanın antroposentrik və kontekstual təbiətini tam dolğunluğu ilə əks etdirərək müasir onomastik və koqnitiv-linqvistik paradiqmalarla uzlaşır.

Y. Kubryakovanın yanaşmasında isə nominasiya aktı *"ya adlandırılan hadisə və bu hadisə haqqında fikirlər üçün dildə artıq mövcud olan hazır təyinatın seçilməsinə, ya da onun üçün uyğun adın yaradılmasına yönəlmiş nitq-təfəkkür prosesi"* (Кубрякова, 2010: 53) kimi şərh olunur. Bu tərif nominasiyanın mexanizmini strukturlaşdırılmış şəkildə ifadə edir və onun nitq-təfəkkür vəhdəti üzərində qurulduğunu göstərir.

Tədqiqatçı prosesi iki müstəvidə qruplaşdırır:

Mövcud dil sistemində hazır olan nominativ vahidin seçilməsi;

Müvafiq obyekt və ya hadisə üçün tamamilə yeni bir adın fərdi şəkildə formalaşdırılması.

Bu təsnifat nominasiyanın həm reproduktiv (hazır vahidlərin dövriyyəsi), həm də produktiv-yaradıcı tərəflərini nümayiş etdirir. Nominasiyanın nitq və təfəkkürün ortaq məhsulu kimi götürülməsi onun, sadəcə, formal dil faktı olmadığını, insanın idrak fəaliyyəti və konseptuallaşdırma meyilləri ilə bağlılığını təsdiqləyir. Burada obyektin özü ilə bərabər, onun haqqında formalaşan subyektiv mülahizələrin də nəzərə alınması izahedici aspekti ön plana çıxarır. Nəticə etibarilə, nominasiya dil sistemi, mentalitet və kommunikativ tələbatların qarşılıqlı təmas nöqtəsində dayanan mürəkkəb bir fenomendir.

Nominasiya hər bir tarixi mərhələdə özünü göstərən fasiləsiz bir prosesdir. İlkin nominasiyaya aid olan sadə kök sözlərin yaranma mexanizmini yalnız etimoloji analizlər vasitəsilə qismən bərpa etmək mümkündür. Bununla paralel olaraq, sosial-ictimai inkişaf fondunda daim yeni anlayışlar meydana çıxır ki, bu da adlandırma prosesinin fasiləsizliyini təmin edir.

Yeni bir reallıq yarandıqda onun adlandırılması qaçılmaz olur. Xüsusilə son dövrlərdə elmi-texniki inkişafın təsiri ilə leksikanın predmet-tematik qatında güclü dinamika müşahidə olunur. Bəzi hallarda dilin daxili imkanları hesabına alınma sözlərin əvəzinə daha anlaşıqlı milli ekvivalentlər formalaşdırılır. Məsələn, XX əsrdə postsovet məkanında yaşayan xalqların dillərində bu cür məqsədyönlü dil quruculuğu prosesi getmiş və milli terminoloji sistemlər formalaşmışdır. Digər tərəfdən, mövcud leksik vahidlərin mənadaxili genişlənməsi və ya daralması da yeni diferensial adların yaranmasını zəruri edir. Bəzən isə ideoloji və ictimai dəyişikliklər fonunda bəzi sözlər köhnələrək dilin aktiv fondundan çıxır. Beləliklə, leksik sistemdəki dəyişikliklər və yeni sözlərin təşəkkülü həm dildaxili (intralinqvistik), həm də dilxarici (ekstralinqvistik) amillərin birbaşa təsirinin nəticəsidir.

Obyekt və anlayışların adlandırılması müəyyən prinsiplər əsasında aparılır. Bu prinsiplər, əsasən, iki qrupa ayrılır:

Obyektiv prinsiplər: Obyektin fərdi xüsusiyyətlərinə, xarici əlamətlərinə, funksiyasına və məkanına əsaslanan adlandırma.

Obyektiv-subyektiv prinsiplər: İnsanın daxili dünyasını, mədəni stereotiplərini, assosiasiyalarını və metaforik köçürmələrini əks etdirən adlandırma.

Mətn səviyyəsində isə mövzu əsas komponent kimi çıxış edir və daxili məzmunu yığcam şəkildə ifadə edir. Mətndəki mövzu eyni semantik sahəyə aid olan sözlər (tematik qruplar) vasitəsilə reallaşır. Bu vahidlərin mətn boyu xətti ardıcıllıqla təkrarlanması mətndə semantik bütövlüyü təmin edən "tematik zəncirlər" formalaşdırır. Başlıca nominativ zəncir isə birbaşa əsas predmeti adlandıraraq vacib informasiyanı yardımçı məlumatlardan ayırmağa xidmət edir.

Tədqiqat obyektinin xarakterindən asılı olaraq daha spesifik nominasiya amilləri də mövcuddur. Məsələn, urbanonimlərdə zaman və məkan, toponimlərdə antropogen amil (insan fəaliyyəti və tarixi şəxsiyyətlər), antroponimlərdə leksik-semantik aspektlər, bədii onomastikada isə estetik-praqmatik təsir amili ön plana keçir. Bu faktorlar çox vaxt sosiomədəni və linqvomədəni amillər kimi də qruplaşdırılır.

Ümumiləşdirsək, nəzəriyyədəki nominasiya amilləri dildaxili və dilxarici olmaqla iki böyük qrupda cəmlənir və hər ikisi motivasiya əlamətinin seçilməsinə birbaşa təsir edir. Dil sisteminin daxili inkişafı (leksik-semantik sistem) yeni sözlərin / adların yaranmasında mühüm yaradıcı funksiyaya malikdir. Bununla yanaşı, bir çox dilçilər (N. Qolev və b.) qeyd edirlər ki, nominasiya prinsiplərini yalnız dildaxili mexanizmlərlə məhdudlaşdırmaq olmaz, çünki adverməni yönləndirən əsas hərəkətverici qüvvə ekstralinqvistikdir (realilərin xüsusiyyətləridir) (bax: Голев, 1972). Şübhəsiz, advermə prinsiplərini yalnız dilin daxili strukturu (fonetik, morfoloji, sintaktik qaydalar) çərçivəsində izah etmək koqnitiv və sosiolinqvistik reallığı kənarda qoymaq deməkdir. Nominasiya aktı insan təfəkküründün, sosiomədəni mühitin və tarixi kontekstin birbaşa məhsuludur. Yəni ekstralinqvistik faktorlar (ideologiya, coğrafi mühit, tarixi şərait) "sifarişçi", dilin daxili mexanizmləri isə sadəcə bu sifarişi icra edən "alətdir". Bu fikrin ən bariz sübutunu intellektual obyektlərin (ideonimlərin) və coğrafi-inzibati məkanların (urbanonimlərin) adlandırılmasında görürük. Tarixi gedişat, siyasi quruluş dəyişəndə dilin daxili mexanizmləri dəyişmir, lakin advermə meyilləri kökündən dəyişir (məsələn, küçə, meydan adlarının və ya elmi cərəyanların adlarının dəyişməsi). Hərəkətverici qüvvə dildaxili olsaydı, bu dinamika baş verməzdi. Bundan əlavə, insan (nominator) obyekti adlandırarkən özünün subyektiv dünyagörüşündən, assosiasiyalarından və milli-mədəni mentalitetindən çıxış edir. Nominasiya – dildən daha çox, təfəkkürün və praqmatikanın hadisəsidir. Əgər nominasiya yalnız dildaxili mexanizmlərlə məhdudlaşsaydı, dünyadakı bütün dillərdə eyni tipli obyektlər eyni məntiqi modellərlə adlandırılardı. Lakin biz görürük ki, fərqli xalqlar eyni reallığı öz mədəni kodlarına, tarixi təcrübələrinə uyğun olaraq tamamilə fərqli prinsiplərlə adlandırırlar. Bu da sübut edir ki, advermənin fəlsəfəsi dilin strukturundan deyil, həyatın özündən qaynaqlanır.

Dilxarici amillərə mədəniyyət, milli mentalitet, dövlət quruluşu, mətnin janrı və üslubu aid edilir (bax: Павлов, 2008) və onlar da öz növbəsində obyektiv və subyektiv qruplara bölünür. Dildaxili amillərə isə nitq şəraiti, kontekst və dilçilik texnikası ilə bərabər, fərdin psixoloji xüsusiyyətləri daxildir. Bu amillərin strukturunu aşağıdakı cədvəllə sistemləşdirmək mümkündür:

Nominasiya prosesinə təsir edən amillərin təsnifatı

Amillər	**Növləri**	**Məzmunu**
Dilxarici (Ekstralinqvistik)	Obyektiv (Praqmatik)	Obyektin real xüsusiyyətləri, xassələri və əlamətləri
	Subyektiv	Subyektiv nominasiya məqsədi, milli adlandırma ənənələri, mədəni-sosial təcrübə, milli psixologiya
Dildaxili (İntralinqvistik)	Nitq	Nitq şəraiti, ünsiyyətin məqsədi, kontekst mühiti
	Sistem	Linqvistik texnika, fərdin psixoloji xüsusiyyətləri

Adlandırma zamanı bu amillərdən hansının dominant olduğunu müəyyən etmək bəzən çətinlik yaradır, çünki onların hər biri prosesdə müstəsna əhəmiyyətə malikdir. Dilin nominasiya prinsiplərinin özünəməxsusluğu məhz bu ekstralinqvistik və intralinqvistik amillərin kompleks qarşılıqlı təsirinin məhsuludur.

Motivasiya və dil şüuru

"Motivasiya – nominasiya prosesinin əsas komponentlərindən biridir, burada motivasiya əlamətinin seçimi ilə onu əks etdirən leksik vahid arasında qarşılıqlı əlaqə müşahidə olunur" (Хахалкина, 2002: 52). Motivasiya nominasiya prosesinin əsas nüvəsidir; burada seçilmiş əlamətlə onu ifadə edən leksik

vahid arasında birbaşa əlaqə qurulur. İlkin mərhələdə əsas götürülən xüsusiyyət sonrakı mərhələdə dil vahidinin semantikasında kodlaşdırılır (məsələn, toponimlərdə coğrafi relyefin əks olunması kimi). Bu prosesdə dil daşıyıcısının dil şüuru – yəni sözləri necə qavraması, hansı assosiasiyalarla əlaqələndirməsi və nitqdə necə tətbiq etməsi mütləq nəzərə alınmalıdır. Bir obyektə ad verilərkən onun yüzlərlə xüsusiyyəti arasından məhz bir əlamət seçilir. Bu seçim təsadüfi deyil; o, insanın koqnitiv (dərketmə) fəaliyyəti və praktiki ehtiyacı ilə bağlıdır. Motivasiya əlaməti ilə leksik vahid arasındakı qarşılıqlı əlaqə advermənin kor-koranə yox, sistemli bir proses olduğunu sübut edir.

Motivasiya nominasiyası konsepsiyasında motiv seçimi üç fundamental amillə şərtlənir:

1.Denotatın daxili və xarici əlamətləri (prosesin obyektiv tərəfi);

2.Nominatorun sosial, ideoloji, peşə və yaş xüsusiyyətlərindən qaynaqlanan niyyətləri (prosesin subyektiv tərəfi);

3.Dilin daxili strukturu, sözdüzəltmə modelləri və sistem xüsusiyyətləri.

Motivasiya həm də "sözlərin semantizasiyasında" (bax: Цветкова, 2010: 202) mühüm rol oynayır: o, sözün səs qabığından mənasına, oradan isə törəmə struktur vasitəsilə yeni mənaya doğru gedən idraki bir yoldur. İnsan naməlum bir sözlə qarşılaşdıqda onun strukturunu analiz edərək mənaya nüfuz edir və onun hansı üsulla yarandığını dərk edir. Bu cəhət xüsusilə onomastika sahəsində daha qabarıqdır; ad verən şəxs subyektiv dünyagörüşünü və ətraf aləmə münasibətini yeni ad vasitəsilə ifadə edir. *"Xüsusi adın yaranması ilə onu ortaya çıxaran ictimai-tarixi hadisələr arasındakı əlaqələrin diqqətə alınması mühüm əhəmiyyət kəsb edir. Müəyyən morfoloji ünsürün məhsuldarlığını göstərməklə yanaşı, adın verilməsini şərtləndirən sosiolinqvistik amilləri də müəyyənləşdirmək lazımdır*". (Habibli, 2009: 34). Sözsüz ki, adın strukturunda iştirak edən morfoloji ünsürün dildə nə dərəcədə məhsuldar olduğunu müəyyənləşdirmək dilçilik baxımından əhəmiyyətlidir. Lakin xüsusi adı xüsusi edən, onu ortaya çıxaran ictimai-tarixi kontekstdir. Sosiolinqvistik amillər nəzərə alınmadan aparılan hər hansı bir onomastik tədqiqat adın daxili mahiyyətini, onun daşıdığı tarixi-mədəni kodu vizuallaşdıra bilməz. Adın formalaşmasını şərtləndirən ekstralinqvistik hadisələr və sosiolinqvistik faktorlar onun morfoloji strukturundan daha ilkin və daha hərəkətvericidir.

Nəticə

Nominasiya sadəcə bir obyekti sözlə işarələmək deyil, onun əsasında insanın praktik ehtiyacları və sosial təcrübəsi dayanır. Obyektdən sözə keçid birbaşa deyil, arada mütləq koqnitiv-mental bir "idraki halqa" mövcuddur. Biz obyekti əvvəlcə şüurumuzda emal edir, konseptləşdirir, yalnız bundan sonra adlandırırıq. Ən önəmlisi budur ki, adlandırma fəaliyyət xarakterlidir; insanın həyatına, əməyinə daxil olmayan obyektin adlandırılmasına ehtiyac yaranmır.

Beləliklə, nominasiya prinsiplərinin, üsul və modellərinin öyrənilməsi dil, təfəkkür və sosial mühitin kəsişməsində baş verən bu mürəkkəb prosesin daha dərindən dərk edilməsinə imkan yaradır. Nominasiya sadəcə texniki advermə aktı deyil, insanın gerçəkliyi konseptuallaşdırma mexanizminin ən mühüm ifadə vasitəsidir.

ƏDƏBİYYAT

1.Habibli, R. (2009). Ad Bilimsel Birimler ve Sosyal Etmenler. *Türk Dünyası Dil ve Edebiyat Dergisi*, 28, 33-38 https://tdk.gov.tr/wp-content/uploads/2014/10/200928habibli.pdf

2.Хахалкина, Т. (2002). Номинация нганасанских зоонимов. *Вестник Томского государственного педагогического университета*, 1 (29), 49-54. https://vestnik.tspu.ru/files/vestnik/PDF/articles/hahalkina_t._v._49_54_1_29_2002.pdf

3.Кубрякова, Е. (2010). *Теория номинации и словообразование*. Москва.

4.Голев, Н. (1972). О принципах номинации и методе их исследования // *Материалы науч. конференции, посвященной 50-летию образования СССР. Вып. 5: Лингвистика. Теоретические вопросы русского языка и его говоров*, 94-99.

5.Павлов, С. (2008). *Теоретические и прикладные проблемы номинации в курсе «Теория языка»*. Нижний-Новгород

6.Sadıqova, S. (2022). Terminoloji sistemdə nominasiya prosesinin aspektləri, *Dilçilik araşdırmaları*, 1, 48-58

7.Серебренников, Б. (1977). Номинация и проблема выбора. *Языковая номинация (общие вопросы)*, 147-187.

8.Цветкова, Е. (2010). Мотивационные аспекты в топонимии (на материале топонимии Костромы). *Вестник КГУ*, 2, 202-206.